# Dünya şöhrətli müğənni

Polad Murtuza oğlu Məmmədov 4 fevral 1945-ci ildə Bakıda SSRİ Xalq artisti, professor Bülbülün ailəsində anadan olub. Özünə soyad kimi atasının ləqəbini — Bülbül götürüb. 1968-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının Bəstəkarlıq fakültəsini (Qara Qarayevin sinfini) bitirib. Azərbaycan estrada ifaçılığı sənətini xarici ölkələrdə yüksək səviyyədə təmsil edən müğənni beynəlxalq festivallarda diplom və mükafatlara layiq görülüb. 1975-ci ildə təşkil etdiyi Azərbaycan estrada ansamblı, "Aşıqlar" vokal-instrumental ansamblı ilə birgə müxtəlif ölkələrin səhnələrində uğurla çıxış edib.

Geniş yaradıcılıq diapazonuna malik olan bəstəkar öz istedadını musiqinin müxtəlif janrlarında sınayaraq balet, müzikl, instrumental, vokal, simfonik, kamera əsərləri, mahnı və romanslar yaradıb, kinofilmlərə, dram tamaşalarına musiqi bəstələyib.

Onun "Kitabi-Dədə Qorqud" eposunun motivləri əsasında yaratdığı "Eşq və Ölüm" baleti ilk dəfə 2005-ci ildə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Vyana Balet Akademiyasının professoru, baletmeyster Vakil Usmanov tərəfindən səhnəyə qoyulub. Elə həmin il Akademik Opera və Balet Teatrının balet truppası bu tamaşanı Sankt-Peterburqda Mariinsk Teatrında, daha sonra Moskvada Böyük Teatrın səhnəsində nümayiş etdirib.

Polad Bülbüloğlu bir müddət Azərbaycan Dövlət Filarmoniyasının bədii rəhbəri və direktoru, 1988-ci ildən 2006-cı ilədək Azərbaycan Respublikasının Mədəniyyət naziri, 2006-cı ildən 23 sentyabr 2024-cü ilə tarixinədək ölkəmizin Rusiya Federasiyasında səlahiyyətli səfiri vəzifələrində çalışıb.

Sənətkarın Azərbaycan mədəniyyətinin inkişafında xidmətləri yüksək qiymətləndirilib. O, Əməkdar incəsənət xadimi, Xalq artisti fəxri adlarına layiq görülüb, "İstiqlal" və "Şərəf" ordenləri ilə təltif edilib. Prezident İlham Əliyevin 2020-ci il 3 fevral tarixli Sərəncamı ilə Polad Bülbüloğlu mədəniyyətimizin inkişafında böyük xidmətlərinə və uzunmüddətli səmərəli ictimai-siyasi fəaliyyətinə görə Azərbaycanın ən ali mükafatına - "Heydər Əliyev" ordeninə layiq görülüb. Dövlətimizin başçısı bu ordeni Polad Bülbüloğluya təqdim edərkən onu böyük sənətkar və bəstəkar, böyük ifaçı adlandırıb. "Deyə bilərəm ki, Azərbaycan musiqi mədəniyyətində özünəməxsus və təkrarolunmaz iz buraxmısınız. Nəinki Azərbaycan miqyasında, hesab edirəm ki, dünya miqyasında siz ən görkəmli bəstəkarlardan birisiniz. Bunun əyani sübutu odur ki, sizin mahnılarınız yaşayır. Baxmayaraq ki, mahnıların bəziləri 40 il, 50 il bundan əvvəl yazılıb, amma bu mahnılar bu gün də sevilir. Yəni, onlar ölməz mahnılardır, Azərbaycan musiqi fondunun dəyərli nümunələridir. Bildiyiniz kimi, mən də həmişə sizin istedadınızın pərəstişkarı olmuşam və bu gün də böyük məmnuniyyətlə sizin ifanızda o ölməz mahnıları dinləyirəm. Siz nadir musiqiçilərdənsiniz ki, ancaq özünüz bəstələdiyiniz mahnıları ifa edirsiniz. Bu mahnıları heç kim sizin kimi belə ürəklə, məharətlə ifa edə bilməz", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Polad Bülbüloğlu həm də tanınmış ictimai xadim və diplomatdır. O, Azərbaycanın Rusiyadakı səfiri olaraq iki ölkə arasında əlaqələrin inkişafına dəyərli töhfələr verib.

Yubileyi ərəfəsində Moskvada təqdim etdiyi möhtəşəm konsert proqramında Rusiyanın siyasi və mədəni elitasının görkəmli nümayəndələrinin iştirakı ona bəslənilən hörmət və sevginin daha bir parlaq ifadəsi olaraq diqqət çəkir.

Novator sənətkar kimi adını mədəniyyət tariximizə böyük hərflərlə yazdırmış fitri istedad sahibinin əsərləri hələ çox yüzilliklər insanların mənəvi dünyasının zənginləşməsinə, zövqünün formalaşmasına xidmət edəcək.

2020-ci ildə ad gününü Beyləqanda cəbhə bölgəsində qeyd edən Polad Bülbüloğlu keçirdiyi hissləri jurnalistlərlə bölüşərək deyib: "Çox duyğuluyam. Bu gün ötən 75 ildə ən gözəl ad günümü keçirirəm. Əsgərlərlə birgə, Qarabağa yaxın bir yerdə. Buradan Qarabağ dağları görünür. Əsgərlərlə bir yerdə yemək yedik, çay içdik, tort kəsdik, rəqs etdik. Bundan xoşbəxt gün tapmaq çətindir. Şah əsərim Qarabağ haqqında yazacağım Qələbə marşı olacaq. Bu marşı özüm ifa edəcəyəm".

Polad Bülbüloğlunun bu ad günündən cəmi bir neçə ay sonra, 2020-ci il sentyabrın 27-də Ali Baş Komandanın əmri ilə müzəffər Azərbaycan ordusu Qarabağı və sənətkarın ata-baba yurdu Şuşanı erməni quldurlarının işğalından azad etdi. İndi işğaldan azad olunan torpaqlarımızda böyük tikinti-quruculuq işləri görülür, qaçqın və köçkünlərin öz yurduna Böyük Qayıdışı həyata keçirilir. Qarabağda neçə illər səsi-sədası gəlməyən Qarabağ bülbülləri yenidən cəh-cəh vurur. Şüşada erməni vandallarının dağıtdığı tarixi mədəniyyət abidələrimiz düşmənə gözdağı olaraq yenidən bərpa edilib ucaldılır. Artıq mahnı və musiqi festivalları, VII "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalı Şuşada keçirilmişdir. Sevimli sənətkarımız da həmin tədbirlərdə öz möhtəşəm musiqiləri və gur avazı ilə həsrətini çəkdiyi laçın qayaların üzərində bərqərar olan Şuşasına və Xankəndinə səs salmıdır və bu səs insanlarla bərabər dağı-daşı da sevindirmişdir.

Azərbaycan incəsənətini dünya ölkələrində daim öz bəstələri və mahnıları ilə tanıdan, xalqımızın haqlı tələbini yüksək tribunalarda bacarıqlı və mahir diplomat kimi uzun illər yorulmadan təmsil edən böyük sənətkarın bu il 80 yaşı tamam olur. Bu münasibətlə ölkəmizin bütün mədəniyyət müəssisələrində geniş tədbirlər planı hazırlanıb həyata keçirilir. Belə tədbirlərdən ən möhtəşəminin yenə də Şuşa şəhərində keçirilməsi nəzərdə tutulur.

Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası da Azərbaycanın xalq artisti Polad Bülbüloğlunun 80 illik yubileyi münasibətilə onun həyat-fəaliyyəti və yaradıcılığı haqqında günbəgün artan informasiyanı geniş istifadəçi kütləsinə çatdırmaq məqsədilə elektron məlumat bazası tərtib edib və kitabxananın saytında (ryl.az) yerləşdirərək oxucuların istifadəsinə verib.

Dünya şöhrətli sənətkarı kitabxanamızın kollektivi və çoxsaylı oxucuları adından təbrik edir, həyatının bu xoş gününün sevincinə şərik çıxır, ona tükənməz yaradıcılıq şövqü və gələcək fəaliyyətində uğurlar arzulayırıq.